Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə keçirdiyi şahmat yarışının finalında rayon, şəhər mərhələlərinin qalibi olan 70-ə yaxın müəllim iştirak edib. Olimpiya sistemi üzrə təşkil olunan final yarışının nəticələrinə əsasən, Lerik rayonu Çayrud kənd tam orta məktəbinin müəllimi İmran Kəlbiyev birinci, Naxçıvan Muxtar Respublikası Sədərək rayonu Sədərək kənd 1 nömrəli tam orta məktəbin müəllimi Sultan Rzayev ikinci, Cəlilabad şəhər 4 nömrəli tam orta məktəbin müəllimi Anar Bağışov üçüncü yerin sahibi olublar.

Qaliblər və fəal iştirakçılar diplomla təltif olunub və onlara pul mükafatları verilib.

Qeyd edək ki, bu yarış şahmatı geniş təbliğ etmək və yaymaq, asudə vaxtı səmərəli keçirmək və ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünü geniş qeyd etmək məqsədilə ümumi təhsil məktəblərinin müəllimləri arasında şahmat yarışının keçirilməsi haqqında Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə qərarına əsasən təşkil olunub. Yarışın birinci mərhələsi martın 10-dək ümumi təhsil məktəblərində, ikinci mərhələsi isə aprelin 10-dək şəhər və rayonlar üzrə keçirilib.